# COP29 rəhbərliyi Brüsseldə keçirilən COP30-IEA yüksəksəviyyəli enerji dialoqu konfransında çıxış edib

**COP29-un rəhbəri və Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Brüsseldə keçirilən COP30-IEA (Beynəlxalq Enerji Agentliyi) Avropa Komissiyası arasında yüksəksəviyyəli enerji dialoqu konfransında iştirak edir.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxışı zamanı Muxtar Babayev ədalətli, nizamlı və bərabər enerji keçidinin təmin olunması, iqlim maliyyəsi öhdəliklərinin yerinə yetirilməsi və Milli Müəyyən Edilmiş Töhfələrin (NDC) gücləndirilməsinin vacibliyinə toxunub.

Muxtar Babayev ötən il Bakıda keçirilmiş COP29 konfransında əldə olunan əsas nəticələrə diqqət çəkərək bildirib ki, BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Təsirin Azaldılması üzrə İş Proqramı danışıqlarda çətinliklərlə üzləşsə də, Bakı sammitində böyük irəliləyişlərə nail olunub. Bu proqramın şəhərlər, binalar və şəhər sistemləri üzərində mühüm təsiri qeyd olunub. Bu istiqamətdə iş prosesinin davamı olaraq, Azərbaycan 2026-cı ildə Ümumdünya Şəhər Forumuna evsahibliyi edəcək.

Muxtar Babayev həmçinin COP29-un Qlobal Enerji Saxlancı və Şəbəkələri çərçivəsində elan olunan qlobal öhdəliklər barədə danışıb. Bunlar arasında 2030-cu ilə qədər enerji saxlanması gücünün 1500 qiqavata çatdırılmasını və 2040-cı ilə qədər 80 milyon kilometrə yaxın enerji ötürmə şəbəkəsinin tikilməsini nəzərdə tutan "Qlobal Enerji Saxlama və Şəbəkələr üzrə Öhdəlik", eləcə də "Yaşıl Enerji Zonaları və Dəhlizləri üzrə Öhdəlik" və "Hidrogen üzrə Bəyannamə" xüsusi yer tutur. Bu sənədləri 60-dan çox ölkə dəstəkləyib.

COP29-un rəhbəri çıxışında Bakıda qəbul edilən 300 milyard dollarlıq Bakı Maliyyə Məqsədinin tarixi nəticə olduğunu vurğulayıb. O, bəzi donor ölkələrin iqlim dəstəyi və yardım proqramlarını azaltmasından narahatlığını ifadə edərək bildirib ki, bu vədlər yerinə yetirilməzsə, qlobal etimada ciddi zərbə dəyəcək.

M.Babayev qeyd edib ki, təmiz inkişaf yollarını dəstəkləyən çevik və dayanıqlı maliyyə sisteminin yaradılması enerji keçidinin uğurla həyata keçirilməsi üçün əsas şərtdir. Bu məqsədlə Azərbaycan və Braziliya hökumətləri "Bakıdan Beləmə yol xəritəsi" üzərində birgə işləyir və yaxın günlərdə Bonn şəhərində bu istiqamətdə rəsmi məsləhətləşmələr keçiriləcək.

Çıxışının sonunda M.Babayev Azərbaycanın COP30 sədrliyi ilə sıx əməkdaşlıq edərək, Beləmdə keçiriləcək növbəti COP-un "icra COP-u" olması üçün dəstəyini davam etdirəcəyini bildirib.

Qeyd edək ki, iyunun 13-də Azərbaycan və Avropa Komissiyası arasında yüksəksəviyyəli enerji dialoqunun üçüncü raundu Brüsseldə keçiriləcək. Danışıqlarda Azərbaycan tərəfini energetika naziri Pərviz Şahbazov, Avropa Komissiyasını isə Aİ-nin enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensen təmsil edəcək.

Xatırladaq ki, ötən il Beynəlxalq Enerji Agentliyi (BEA) və COP29-un sədrliyi birlikdə COP28-in nəticələrinin həyata keçirilməsini inkişaf etdirmək və COP29-a qədər enerji gündəmini formalaşdırmaq üçün nazirləri, texniki ekspertləri və əsas tərəfdaşları bir araya gətirən beş Yüksəksəviyyəli Enerji Keçid Dialoqu keçirib.

Azərbaycan. - 2025.- 12 iyun (№ 119).- S.4.